№ (4)
2024

QOBUSTAN DÜNYASI
ELMİ-METODİKİ, POPULYAR JURNAL

# QOBUSTAN DÜNYASI

Scientific-methodical, popular magazine
www.gobustandunyasi.az





*B. Dandıqaraeva*
*Tanbalı Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruq-Muzeyinin direktoru, Milli Qurultayın üzvü*
*tamgaly@mail.ru*

*B. Dandygaraeva*
*Director of the State historical, cultural and natural museum-reserve "Tanbaly" Member of the National Kuryltai*
*tamgaly@mail.ru*

# TANBALIYA QISA BAXIŞ
# A BRİEF OVERWIEV OF TANBALY

İyirmi il əvvəl Qazaxıstanın və Mərkəzi Asiya ölkələrinin mədəni və elmi həyatında əhəmiyyətli bir hadisə baş verdi. 2004-cü ildə Ümumdünya İrs Siyahısına yeni yer - "Tanbalı arxeoloji landşaftının petroqlifləri" daxil edildi ki, bu da regionda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk qayaüstü sənət abidəsi idi. UNESCO-ya üzv dövlət kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək, Qazaxıstan hökuməti Ümumdünya İrs Siyahısına daxil olan obyektin idarəsi üçün "Tanbalı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruq-Muzeyini (2003) yaratmışdır.

Bu gün Tanbalı Qoruq-Muzeyi ölkəmizdə və bütün Orta Asiya regionunda bu tipli yeganə ixtisaslaşmış müəssisədir. O, məşhur qayaüstü sənət abidəsinin UNESCO-nun Ümumdünya Mədəni İrs obyekti kimi

Twenty years ago, a significant event occurred in the cultural and scientific life of Kazakhstan and Central Asian countries: in 2004, a new site appeared on the World Heritage List - the "Petroglyphs of the Archaeological Landscape of Tamgaly", the first rock art monument in the region to be included in the UNESCO World Heritage List. Fulfilling its obligations as a UNESCO member state, the Government of Kazakhstan established the State Historical, Cultural, and Natural Reserve-Museum "Tamgaly" (2003) to manage the World Heritage site.

Today, the Tamgaly Reserve-Museum is the only specialized institution of its kind in our country and throughout the entire Central Asian region. It ensures the preservation of the outstanding rock art monument

qorunmasını təmin edir. Əlavə olaraq, bu qoruq-muzey elmi tədqiqatların aparılması və Tanbalı kompleksi abidələrinin vəziyyətinə nəzarətin edilməsi ilə məşğuldur. Qazaxıstanlı bərpaçı mütəxəssislərlə birlikdə petroqliflərin mühafizəsi üzrə layihələri həyata keçirir. Bu illər ərzində qoruq-muzeyin əməkdaşları Ümumdünya İrs obyektinin səmərəli idarə edilməsində mühüm təcrübə toplamışlar.

2021-ci ildə Tanbalı yaxınlığındakı müvəqqəti ofisin əvəzinə konfrans zalı, muzey, kitabxana, elmi işçilər üçün ofis otaqları, bərpa laboratoriyası, turistlərin və muzey qonaqlarının istifadəsi üçün şəraitin təmin edildiyi böyük memarlıq kompleksi, Ziyarətçi Mərkəzi tikildi. Tanbalı Qoruq-Muzeyində Mərkəzi Asiyanın qayaüstü sənət abidələrinin tədqiqi və mühafizəsi üzrə mütəxəssislər üçün sahə ekspert görüşləri, beynəlxalq elmi konfranslar, elmi-metodiki seminarlar keçirilməkdədir. Bütün bunlar Tanbalının arxeoloji abidələrini və təbii landşaftını tədqiq edən arxeoloq, geoloq və bioloqlar kimi bir neçə alim nəsillərinin uzunmüddətli əməyi ilə davam etdirilmişdir. Bundan əlavə, nadir petroqliflərin ehtiyatla qorunub saxlanması üçün şərait yaradılmasında digər mütəxəssislərin - memarların və bərpaçıların ciddi səyləri mühüm əhəmiyyət kəsb edirdi. Bu tədqiqatlar və səylər sayəsində Tanbalının Qazaxıstan üçün böyük mədəni əhəmiyyətini müəyyən etmək və abidənin bütün sivil dünyanın irsi kimi müstəsna universal dəyərini əsaslandırmaq mümkün olmuşdu.

Tanbalı petroqlifləri 19 sentyabr 1957-ci ildə Qazaxıstanın ilk peşəkar arxeoloqu, o dövrdə Qazax SSR Elmlər Akademiyasının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun Cənubi Qazaxıstan arxeoloji ekspedisiyasının Semireçensk dəstəsinə rəhbərlik edən Anna Georgiyevna Maksimova (1923-2002) tərəfindən aşkar edilmişdir. Moskva Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirərək 1946-cı ildə Almatıya gələn və ömrünün sonuna kimi Qazaxıstanda qalan arxeoloq çoxsaylı mühüm arxeoloji kəşflər etsə də, Tanbalı petroqliflərinin aşkar edilməsi onların ən əhəmiyyətlisi idi. Uzun illər sonra artıq təqaüdə çıxmış A.G.Maksimova gənc həmkarlarının Tanbalının öyrənilməsindəki və ərazinin

as a UNESCO World Cultural Heritage site. Additionally, the museum-reserve conducts scientific research and monitors the condition of the Tamgaly complex monuments. Together with Kazakhstani restoration specialists, it implements projects for the conservation of petroglyphs. Over the years, the museum-reserve staff have accumulated significant experience in the effective management of the World Heritage site.

In 2021, instead of the temporary office near Tamgaly, a Visitor Center was established—a large architectural complex housing a conference hall, museum, library, office spaces for scientific staff, restoration laboratory, and facilities for tourists and museum guests. The Tamgaly Reserve-Museum hosts field expert meetings, international scientific conferences, and scientific-methodical seminars for specialists in the study and preservation of Central Asian rock art monuments. All of these was preceded by the long-term work of several generations of scientists—archaeologists, geologists, and biologists—who studied the archaeological monuments and natural landscape of Tamgaly. Additionally, the meticulous efforts of other specialists—architects and restorers—were essential in creating conditions for the careful preservation of the unique petroglyphs. Thanks to these studies and efforts, it became possible to establish the significant cultural importance of Tamgaly for Kazakhstan and justify the outstanding universal value of the monument as a heritage of the entire civilized world.

The Tamgaly petroglyphs were discovered on September 19, 1957, by the first professional archaeologist of Kazakhstan, Anna Georgievna Maksimova (1923–2002), who at that time led the Semirechensk detachment of the South Kazakhstan Archaeological Expedition of the Institute of History, Archaeology, and Ethnography of the Academy of Sciences of the Kazakh SSR. Graduating with honors from Moscow State University, she arrived in Alma-Ata in 1946 and remained in Kazakhstan forever. She made numerous important archaeological discoveries, but the discovery of the Tamgaly petroglyphs was the most significant.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olması üçün təqdim edilməsinə hazırlanmasındakı uğurları haqqında hekayələrini heyranlıqla dinləyirdi. Sevinc göz yaşları ilə o, 1957-ci ildə kəşfinin əhəmiyyətini tam dərk etmədiyini etiraf etsə də, ona alimlik intuisiyası belə qeyri-adi abidənin xüsusi taleyi olacağını söyləmişdi.

1970-1980-ci illərdə Tanbalı ərazisinin abidələri geoloqlar A.Q.Medoyev və B.J.Aubekerov və arxeoloqlar A.N. Maryaşev və A.S. Ermolaeva tərəfindən araşdırılmışdır. 1988-ci ildən başlayaraq Tanbalı abidələrinin tədqiqi A.E.Roqojinski tərəfindən aparılmışdır. 1990-cı illərin əvvəllərində arxeoloq A.E.Roqojinski və doktor Bolat Jaqfaroviç Aubekerovun rəhbərliyi ilə dövlət qoruq-muzeyinin yaradılması məqsədi ilə Tanbalıda petroqliflərin, qədim yaşayış məskənlərinin, qəbiristanlıqların hərtərəfli geoarxeoloji elmi tədqiqatlarına başlanılmışdır. Yeni tədqiqat metodlarının tətbiqi sayəsində qədim Tanbalı petroqliflərinin yaşı müəyyən edilmiş, ətraf landşaft hərtərəfli öyrənilmiş, Cənub-Şərqi Qazaxıstanda son 3000 ildə baş vermiş paleoiqlim dəyişiklikləri haqqında ilk dəfə olaraq məlumatlar əldə edilmişdir. Həmin illərdə Qazaxıstanda ilk dəfə qayaüstü təsvirlərin qorunması və bərpası üzrə eksperimental işlər aparılmışdır. 2000-ci illərin əvvəllərinə qədər Tanbalıda mühafizə işlərinə kimyaçı-bərpaçı ekspert Lyubov Filippovna Çarloina rəhbərlik edirdi. 2002-2006-cı illərdə UNESCO layihələri çərçivəsində Norveç, Rusiya, Qırğızıstan və Özbəkistandan olan xarici mütəxəssislərin təcrübəsindən istifadə etməklə Tanbalıda petroqliflərin mühafizəsi, sənədləşdirilməsi və monitorinqi metodları işlənib hazırlanmışdır. Tanbalıda bərpaçıların qazandıqları səmərəli təcrübənin digər Orta Asiya ölkələrinin mütəxəssisləri üçün örnək olmasını və Qazaxıstan qayaüstü təsvirlərinin mühafizəsi məktəbinin formalaşmasına gətirib çıxarmasını demək heç də mübaliğə olmaz. Bütün bu elmlərarası tədqiqatların və qazaxıstanlı alimlərin böyük komandasının apardığı işlərin əsas nəticəsi, Tanbalı petroqliflərinin müstəsna qlobal dəyərinin əsaslandırılması oldu ki, bu da "Tanbalı Arxeoloji Landşaftının Petroqlifləri"nin 2004-cü ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə

Many years later, already retired, A.G. Maksimova listened with admiration to the stories of her young colleagues about the successes in studying Tamgaly and preparing the site for nomination to the UNESCO World Heritage List. With tears of joy, she admitted that back in 1957, she did not fully grasp the significance of her discovery, but the intuition of a scientist told her that such an extraordinary monument would have a special destiny.

In the 1970s and 1980s, the monuments of the Tamgaly area were surveyed by geologists A.G. Medoyev and B.Zh. Aubekerov, archaeologists A.N. Maryashev and A.S. Ermolaeva. Starting from 1988, the study of Tamgaly monuments was undertaken by A.E. Rogozhinsky. In the early 1990s, under the leadership of archaeologist A.E. Rogozhinsky and Dr. Bolat Zhagfarovich Aubekerov, comprehensive geo-archaeological scientific research of the petroglyphs, ancient settlements, and burial grounds in Tamgaly was initiated with the aim of establishing a state reserve-museum. Thanks to the application of new research methods,the age of the ancient Tamgaly petroglyphs was determined, the surrounding landscape was thoroughly studied, and data on paleoclimate changes in Southeast Kazakhstan over the last 3,000 years were obtained for the first time. During the same years, experimental work on the conservation and restoration of rock art was conducted in Kazakhstan for the first time. Until the early 2000s, conservation work in Tamgaly was led by chemist-restorer Lyubov Filippovna Charloina. From 2002 to 2006, within the UNESCO projects, methods for the conservation, documentation, and monitoring of petroglyphs were developed in Tamgaly, drawing on the expertise of foreign specialists from Norway, Russia, Kyrgyzstan, and Uzbekistan. Thanks to this international collaboration and active exchange of professional experience, a unique set of technologies for the conservation of Central Asian rock art was developed based on the work with Tamgaly's petroglyphs. It is no exaggeration to say that the fruitful experience gained by restorers in Tamgaly served as an example for specialists from other Central

tanındı. Tanbalı petroqliflərinin böyük dəyərinin əsaslandırılması A.E.Roqojinskinin 1990-cı illərin əvvəllərində B.J.Aubekerovun rəhbərliyi altında burada apardığı hərtərəfli tədqiqatın əsas nəticələrinə əsaslanır. (1994-cü ildə A.E.Roqojinski "Tanbalı ərazisinin Tunc dövrünün arxeoloji kompleksi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir). Tədqiqatın yeniliyi ondan ibarət idi ki, Tanbalı arxeoloji abidələri, müxtəlif tarixi dövrlərə aid petroqliflər, yaşayış məskənləri və qəbiristanlıqlar ilk dəfə vahid arxeoloji (relikt, palekultural) landşaft kimi hesab edilmiş və burada petroqliflər aparıcı yer tutmuşdur. Onlar müxtəlif zamanlarda, müxtəlif şəraitlərdə və müxtəlif məqsədlər üçün yaradılmış olsa da, məhz qayaüstü rəsmlər vasitəsilə insanlar hər zaman ətraf ərazini kəşf etmiş, onu iqtisadi, yaşayış və dini-ibadət fəaliyyətləri üçün uyğunlaşdırmışlar.

Tanbalıda Tunc dövrünə aid petroqliflərin çoxunun Orta Asiya qayaüstü təsvirləri arasında bənzəri yoxdur. Tanbalının yüksək mədəni əhəmiyyəti ondan ibarətdir ki, burada Tunc dövrünə aid insanlar əvvəlcə öz tanrılarının bədii obrazlarını yaratmış, onlara insana bənzəyən forma vermişlər. Tanbalının qlobal mənada önəmi burada insanların açıq səma altında Günəş məbədi yaratmaqla yaradıcı dahiliyi landşaftın təbii unikallığı ilə məharətlə birləşdirə bilmələridir. Tanbalı petroqliflərinin məhz bu xüsusiyyətləri möhtəşəmliyi ilə tanınıb və ərazinin 2004-cü ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi üçün əsas olub. Lakin sonrakı illərdə Tanbalı yaxınlığındakı Koğalı və Almalının yaxın ərazilərində aparılan arxeoloji tədqiqatlar nəticəsində qədim türk dövrünə və yeni dövrə aid, əvvəllər məlum olmayan bir çox yeni abidələr aşkar edilmişdir. Bu tapıntılar bu geniş ərazini əhatə edən mədəni mənzərənin tarixi və mədəni əhəmiyyətini yenidən qiymətləndirməyə kömək edir. Məsələn, Koğalıda qədim türk mifologiyasından və ritualistik praktikadan personajları, bütöv hekayələri əks etdirən nadir qayaüstü təsvirlərin yığınları - üçbuynuzlu tac taxmış qadın obrazı (Umay?), türk liderinə ehtiramı bildirən obraz (kaqan?) və daha çoxu aşkar edilmişdir. Petroqliflərlə yanaşı, stelalar,

Asian countries, leading to the formation of a Kazakhstani school of rock art conservation.

The main result of all these interdisciplinary research and work by a large team of Kazakhstani scientists was the justification of the outstanding global value of the Tamgaly petroglyphs, which was recognized when the "Petroglyphs of the Archaeological Landscape of Tamgaly" were included in the UNESCO World Heritage List in 2004. The justification for the outstanding value of the Tamgaly petroglyphs is based on the main results of comprehensive research conducted here by A.E. Rogozhinsky under the guidance of B.Zh. Aubekerov in the early 1990s (in 1994 A.E. Rogozhinsky defended his candidate dissertation on the topic "Archaeological complex of the Bronze Age of the Tamgaly tract"). The novelty of the study lay in the fact that the archaeological monuments of Tamgaly - petroglyphs, settlements, and burial grounds of different historical epochs - were considered for the first time as a single archaeological (relic, paleocultural) landscape, in which petroglyphs occupied a leading place. They were created at different times, in different conditions, and for different purposes, but it was through rock drawings that people in all ages organized the surrounding landscape, adapting it for economic, residential, and cult-religious activities.

Many of the Bronze Age petroglyphs in Tamgaly are unique in Central Asian rock art. The high cultural significance of Tamgaly lies in the fact that here, people of the Bronze Age first created artistic images of their gods, giving them an anthropomorphic form.The global importance of Tamgaly lies in the fact that here, by creating an open-air Sun Temple, humans managed to skillfully combine creative genius with the natural uniqueness of the landscape. It is these features of the Tamgaly petroglyphs that were recognized as outstanding and served as the basis for the inclusion of the site in the UNESCO World Heritage List in 2004. However, in subsequent years, archaeological studies in the nearby areas of Kogaly and Almaly near Tamgaly have revealed many new monuments from the ancient Turkish period and the NewTime, previously unknown.

heykəllər və balballar olan xatirə abidələri də var: bir stelada üçbuynuzlu baş geyimli qadının da iştirak etdiyi "hekayə səhnəsi" təsvir edilmişdir; steladakı təsvirlər müxtəlif qəbilələrin tamğaları ilə müşayiət olunur. Bütün bunlar VII-VIII əsrlərdə bu ərazidə Qərbi türklərin ibadət mərkəzinin mövcudluğundan xəbər verir.

Almalı ərazisində qədim və Orta əsrlərə aid çoxsaylı yaşayış məskənləri aşkar edilmişdir və yaxınlıqdakı qayalarda Qərbi Türk, Türgiş və Qarluq xaqanlıqlarının hökmdarlarına aid tamğalar həkk olunmuşdur. Burada, qədim türk runik yazıları olan üç yer də tapılmışdır ki, onların yanında Mahmud əl-Kaşğarinin "Divani Lügət-it-Türk" əsərində Oğuz tamğaları kimi tanınan türk tayfalarına aid tamğalar təsvir edilmişdir. Bu, hazırda Qazaxıstanda qədim türk epiqrafikasının ən böyük toplusudur. Almalıdakı bu cür abidələrin cəmlənməsi, ehtimal ki, Qərbi türklərin, Türgişlərin və Qarluqların VII-IX əsrlərdə, sonralar isə erkən Qaraxanlı dövrünə qədər əsas siyasi mərkəzi və ya hökmdarların köçəri düşərgəsinin mövcudluğunu göstərə bilər. Nəhayət, ərazidə 1846-1847-ci illərdə son müstəqil Qazax xanı Kenasarinin burada olduğu dövrdə mövcud olan yaxşı qorunmuş daş istehkam qalıqları aşkar edilmişdir. Beləliklə, Tanbalı ətrafındakı abidələrin ilkin tədqiqi bu UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan məkanın əhəmiyyətini yenidən qiymətləndirməyə səbəb olur: yalnız Tunc dövrünə aid bənzərsiz arxeoloji landşaft kimi deyil, həm də Qərbi Türk, Türgiş və Qarluq xaqanlıqlarının mühüm dini və siyasi mərkəzi kimi, Orta əsr Orta Asiyanın və ondan kənar bölgələrin tarixində mühüm rol oynamışdır. Öz növbəsində, yeni tapıntıların bu cür ilkin qiymətləndirilməsi Almalı və Koğalıdakı arxeoloji və tarixi abidələrin hərtərəfli tədqiqi, bu qiymətli mədəni landşaftların Tanbalı Qoruq-Muzeyinə daxil edilməsi və "Tanbalı Arxeoloji Landşaftının Petroqlifləri"nin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin genişləndirilməsi üçün sənədlərin hazırlanması kimi xüsusi bir vəzifəni irəli sürür.

These findings help to reassess the historical and cultural significance of this extensive cultural landscape. For example, in Kogaly, clusters of unique rock engravings have been discovered, depicting characters and entire narratives from ancient Turkish mythology and ritualistic practices: the depiction of a female character wearing a three-horned crown (Umay?), homage to a Turkish leader (kagan?), and more. Alongside the petroglyphs, there are commemorative memorials with stelae, sculptures, and balbals: one stela depicts a "narrative scene" also involving a woman wearing a three-horned headdress; the images on the stela are accompanied by tamgas of various clans. All this indicates the presence of a cult center of the Western Turks in this area in the 7th-8th centuries.

In the Almaly tract, numerous ancient and medieval settlements have been discovered, with tamgas of the rulers of the Western Turkish, Türgesh, and Karluk kaganates carved on rocks nearby. Here, three locations with ancient Turkish runic inscriptions have also been found, alongside which tamgas of Turkic tribes, including those known from Mahmud al-Kashgari's manuscript "Divan Lughat al-Turk" as the tamgas of the Oghuz, are depicted. This is the largest concentration of ancient Turkish epigraphy in Kazakhstan to date. The concentration of such monuments in Almaly may indicate the existence of a major political center or the nomadic camp of rulers of the Western Turks, Türgesh, and Karluk from the 7th to 9th centuries and later up to the early Karakhanid period. Finally, well-preserved remnants of stone fortifications have been discovered here, which existed during the period of the last independent Kazakh khan Kenesary's presence here in 1846-1847. Thus, the initial study of the monuments around Tanbali prompts a reevaluation of the significance of this site, which is included in the UNESCO World Heritage List: not only as a unique archaeological landscape from the Bronze Age, but also as an important religious and political center of the Western Turkish, Türgish, and Karluk Khaganates, playing a key role in the history of Central Asia and beyond

in the medieval period. In turn, such a preliminary assessment of new discoveries presents a special task: the comprehensive study of archaeological and historical monuments in Almaly and Kogaly for subsequent inclusion of these valuable cultural landscapes into the Tamgaly Museum-Reserve and the preparation of documentation for the expansion of the nomination "Petroglyphs of the Tamgaly Archaeological Landscape" to the UNESCO World Heritage List.





*Türk dövrünə aid qayaüstü rəsmlər*

*Rock paintings of the Turkish period*